**Azərbaycan özünün növbəti uğur hekayəsinə COP29-un təşkili ilə imza atır - ŞƏRH**

COP29-la bağlı Azərbaycanın təbliğ və təşviq etdiyi istiqamətlərin qlobal dəstək qazanması, həmçinin Paris razılaşmasının prinsipial 6.4-cü maddəsi ilə bağlı ortaq məxrəcə gəlinməsi, artıq Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyasının uğuru kimi qəbul oluna bilər. COP29 çərçivəsində keçirilən bütün toplantıda işgüzar dialoq mühitinin yüksək səviyyədə olması, bəşəriyyəti ciddi çağırışlar və təhdidlər qarşısında qoyan iqlim dəyişikliklərinə qarşı mübarizə ilə bağlı nəticəyönlü qərarların verilməsi ölkəmizin 29-cu sessiyaya kimi həyata keçirdiyi genişmiqyaslı fəaliyyətin göstəricisidir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Elçin Mirzəbəyli bildirib.

Deputat qeyd edib ki, COP29 həm təşkilatçılıq, həm müzakirə olunan məsələlərin geniş və qarşılıqlı faydalı spektri, həm də, artıq ölçülə bilən nəticələrinə görə, o qədər yüksək standart müəyyənləşdirib ki, sözügedən tədbirə bundan sonra ev sahibliyi edən ölkələr üçün yeni və daha üst meyarlara imza atmaq heç də asan olmayacaq: “COP29-a 196 ölkədən 72 min iştirakçının qatılması, onların arasında 80 ölkənin prezidentinin, vitse-prezidentinin və baş nazirinin yer alması, mübaliğəsiz olaraq, “Dünya Bakıya qonaq gəlib” deməyə əsas verir. Təkcə bu fakt, eyni zamanda, bir neçə aydır ki, COP29-un uğursuzluğa düçar olması üçün informasiya təxribatları törədən, misli görünməmiş siyasi riyakarlıq nümayiş etdirən, dezinformasiya, yalan və qarayaxma “istehsalı” üzrə bütün rekordları üstələyən xarici böhtançıların və onların ənənəvi nüfuz müvəkkillərinin arzularının puç olduğunu, planlarının iflasa uğradığını sübuta yetirir. Azərbaycan isə COP29-un təşkilində, hər zaman olduğu kimi yüksək peşəkarlıq, qonaqpərvərlik nümayiş etdirməklə, özünün növbəti uğur hekayəsinə imza atır”.

Elçin Mirzəbəylinin sözlərinə görə, COP29-un ana xəttini, qayəsini iqlim dəyişikliklərinə qarşı ardıcıl, sistemli və inklüziv mübarizənin təşkili üçün şəffaf və sabit maliyyə mexanizmlərinin formalaşdırılması prosesi təşkil edir: “Təsadüfi deyil ki, COP29-u “maliyyə COP-u” da adlandırırlar. Əslində bu məqamın özü, Azərbaycanın iqlim dəyişikliklərinin fəsadlarının yumşaldılmasına, yaxud aradan qaldırılmasına, nə qədər dəqiq və fundamental baxış bucağından yanaşdığını göstərir. Bu günə qədər iqlim dəyişiklikləri ilə mübarizənin effektivliyinə mane olan əsas amilin, məhz sabit, nəticəyönümlü, ardıcıl və sistemli maliyyələşmənin təşkilinə nail olunmamasındadır. Ölkəmiz, bu məqamı önə çəkməklə, əslində problemin təməlində dayanan amilin nədən ibarət olduğunu diqqətə çatdırmaqla yanaşı, həm də bəşəriyyətin gələcəyini təhdid edən çağırışlara qarşı birgə, hər kəsin gücü və imkanı daxilində, lakin bərabər mübarizəni təşviq edir. Nüfuzlu maliyyə korporasiyalarının, bank strukturlarının, fondların iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə məqsədilə maliyyə töhfələrini artıracaqlarını bəyan etmələri Bakıdan verilən mesajların hədəfə çatdığını təsdiqləyir”.

**AZƏRTAC**
**2024, 14 noyabr**